# Yaşar Nurisiz 3 il...

## Ramiz Həsənoğlu: “Azərbaycan ekranının böyük istedadları var. Ancaq Yaşarın olduğu yeri heç kim doldura bilməz”





**"Bu gün Facebook-da Yaşar Nurininın doğum günü ilə bağlı məlumatlara rast gəldim. Nə qədər insanın ona öz məhəbbətini ifadə etdiyinin şahidi oldum. Hamı Yaşarla bağlı öz sevgisini yazır. Onun haqqında heç kim keçmiş zamanda danışmır". Bu sözləri sevimli aktyorumuz Yaşar Nuri haqqında yazı hazırlamaq istərkən söhbətləşdiyim rejissor, Xalq artisti Ramiz Həsənoğlunun dilindən eşitdim. Gün ərzində sosial şəbəkələrdə, internet portallarda və qəzetlərdə gözümdən yayınmayan bu sevgi məni də redaksiyamızın az qala daimi qonağı və əslində heç zaman yaddan çıxmayan mərhum aktyor Yaşar Nurinin doğum günündə yenidən onu anmağa yönəltdi.**

Yaşar Nuri redaksiyamıza tez-tez gələrdi. Ad günlərində, bayramlarda... Hər dəfə də əlində bir dəstə çiçək olardı. "Sizə olan sevgimi bu güllərlə ifadə edirəm"- deyirdi. Yubiley tədbirlərimiz, əlamətdar günlərimiz də onsuz keçməzdi. "Sizə o qədər öyrəşmişəm ki, çağırmasanız da gələcəyəm"-söyləyirdi. Uşaqlıq xatirələrindən tutmuş səhnədə saç ağartdığı illərə qədər hər xatirəni danışardı. Şirin və baməzə söhbətindən doymurduq. Həmişə səhnədə və ekrandan bizə əlçatmaz görünən aktyora ara vermədən suallar ünvanlayırdıq...

Redaksiyamıza son gəlişi xəstəlik çağlarına təsadüf etdi. Türkiyədən müalicədən qayıtmışdı. Çoxdan idi səhnəyə də çıxmırdı. Keçirdiyi əməliyyatlardan sonra həyata baxışları da dəyişmişdi. Ən həssas yeri insan münasibətləri idi: "Son vaxtlar həyatın elə üzünü gördüm ki, məni heç nə ilə heyrətləndirmək olmaz. Arzu edirəm ki, bir az saf yaşayaq! Sevib-sevilməyin nə olduğunu bilək. Bəlkə də dünya işığına həsrət qalan adam öz şüuru ilə dünyanın yolunu bizdən yaxşı bilir. Amma biz açıq gözlə çaşırıq. Bir-birimizə badalaq vururuq. Gözümüz görə-görə bir-birimizə pislik edirik. Bir az yaxşılıq etməyə tələsək. Hamı bir-biri ilə söhbət edəndə bilsin ki, qarşısındakı insandır. Bunu bilsək, hər iş düzələr"- deyirdi.

Aktyor səhnəyə ilk gəldiyi vaxtlardan danışanda daha da canlanardı. İlk dəfə 9 yaşında səhnəyə çıxması isə yaddaşında əbədi iz salmışdı: "Onda teatra maraq tam başqa idi. Biləndə ki, səhnədə mən və ya atam oynayacaq "Sovetski" məhəlləsinin böyüklü-kiçikli bütün sakinləri teatra tələsərdi. İndi elə gün olmur ki, Nərimanov heykəlinin yanından fırlanıb "Sovetski"yə qalxmayım. Gələn günlərimi qarşılayıram, keçən günlərimi yola salıram. İndi orada "sfetafor" var. Əvvəllər isə "sfetafor" hara, "Sovetski" hara. Əvvəllər "Sovetski"də böyük-kiçik vardı. Bizim vaxtımızda Ağakərimin "Pobeda" maşını gələndə hamımız qaçıb gizlənirdik. O vaxt 10-15 manata bizim həyətdə kirayədə qalırdılar. Onlara bizim birinci sözümüz nə olurdu: oturdunsa, hər dəfə böyük gələndə durub salam verməlisən. Bir dəfə biri dedi ki, mən nə qədər "salam" verim, çörək almağa gedəndə verirəm, qayıdana qədər cəmi 5 dəqiqə vaxt keçir, onda da salam verim? Atam hörmətlik də deyirdi ki, "sostav" dəyişib axı. Filmdə deyildiyi kimi, söhbət "sosiskada deyil, vinimatelno olmaqdadır". Adi teatrdan götürək. Gəlib görürəm ki, cavan aktyordur, arxasını çevirib oturub. Mən də nə deyim? Deyirəm ki, üzünü görək. Axı mən belə eləməmişəm. Tələb eləməklə deyil, gərək hər şey insanın qanında olsun".




30-dan çox filmə çəkilmişdi Yaşar Nuri. Üstəlik televiziyada və teatrların səhnəsində oynadığı rollar... Ancaq aktyor heç vaxt özündən razılıqla "Mən artıq sənətdə hər şey etmişəm" - demirdi: "Bu filmlərlə yanaşı, rol aldığım 30 tamaşa Qızıl Fondda saxlanılır. Bu sırada hətta cizgi filmi də var. İnsan necə yaşamaqdan doymursa, sənətkar da heç zaman "Mən hər şey etmişəm" deməməlidir. İnsan həmişə özünə sual verməlidir: "Mən nə etmişəm?" Əfsuslar olsun ki, sənətdə heç nə etməyənlər "Mən çox şey etmişəm"- deyə iddia edirlər. Bu iddianı edənlər nə Cəlil Məmmədquluzadənin, nə Hüseyn Cavidin, nə Cəfər Cabbarlının, nə Şekspirin, nə Qoqolun, nə də başqa klassiklərin əsərlərində oynayıblar. "Hər şey etmişəm" deyənlər inanmıram ki, "mən həyatdan doymuşam" da desinlər".

Səhnəmizin "qocamanı" sənətə heç vaxt bəxt kimi baxmamışdı. Zəhmət, istedad və qabiliyyət meydanı kimi yanaşmışdı.

### XALQIN SEVİMLİSİ VƏ BÖYÜK AKTYOR

"Yaşar Nuri unikal aktyordur. Biz bir-birimizin gözünün qabağında böyümüşük"- deyə Ramiz Həsənoğlu danışır: "Yaş etibarilə fərqimiz o qədər də çox deyildi. Ona görə də yaradıcılığımız bir-birimizlə çox əlaqəli olub. Yaşar Nurini ən çox çəkən rejissor mən olmuşam. O, nə teatrda, nə kinoda, nə də televiziyada başqa rejissorlar tərəfindən bu qədər çəkilib. Bu mənada bizi çox şey birləşdirir". R.Həsənoğlu deyir ki, valideynləri də bir-birini gözəl tanıyıb: "Yaşar Nurinin atası Məmmədsadıq Nuriyev istedadlı aktyor idi. Ömrünün son illərində Musiqili Komediya Teatrında çalışırdı. Ancaq anam Ətayə xanım onu Əzizbəyov Teatrının səhnəsində görmüşdü və haqqında xoş sözlər danışırdı. Təbiət öz səxavətini Yaşardan əsirgəməmişdi, atasına verdiyi istedaddan bəlkə daha çox ona vermişdi. Yaşarın çəkildiyi teatr tamaşaları, filmlər də buna sübutdur. O, həmişə zirvəyə doğru yüksələn aktyor olub. Onun imkanlarının hüdudlarını çox adam bilmirdi. Bəlkə o, özü də bundan xəbərsiz idi". Aktyor R.Həsənoğlunun quruluş verdiyi "Qonşu qonşu olsa" tamaşasında 11 rola çəkilib. Epizodlar bir-birinə oxşadığına görə rejissor onların hamısını bir tamaşada Y.Nuriyə həvalə edib: "Sonradan gördüm ki, səhv etməmişəm. Tamaşanın uğuru həm də Yaşarın həmin rolların hər birini fərqli oynamasında idi. Bu mənada Yaşar çox unikal aktyor idi. Onunla işləmək adama zövq verirdi. Aktyor var ki, gərək hər xırda detalı ona deyəsən. Yaşara isə bir işarə kifayət idi ki, kiçik bir detalla obraz yarada və onlarla tamaşaçıların da qəlbinə yol tapa bilsin".

R.Həsənoğlu bildirir ki, Yaşar Nuri onun çəkdiyi "Qatarda", "Evləri köndələn yar", "Ordan-Burdan", "Kökdən düşmüş piano", "Yaşıl eynəkli adam" və s. tamaşalarda oynayıb: "Biz Yaşarla xeyli işlər görmüşük. Xoşbəxtlikdən onun çəkildiyi filmlər, televiziya və teatr tamaşalarının lentləri filmotekamızın fondunda saxlanılır. Bütün bunlar Yaşarın necə böyük istedada sahib olduğunun bariz nümunəsi olmaqla bərabər, gələcək nəsillərə necə aktyor olduğunu da tanıdacaq".

Azərbaycan ifaçılıq sənətinin həmişə yüksək olduğunu bildirən rejissorun sözlərinə görə, Yaşar Nuri öz aktyor ifası ilə fərqlənib: "Azərbaycan teatrı və ekranı onu itirib. O boşluğu heç kim doldura bilməz. O istedad ancaq ona verilmişdi. Bu gün də Azərbaycan ekranının böyük istedadları var. Ancaq Yaşarın olduğu yer təkrarolunmazdır".

Yaşar Nuri ilə həm də həyatda yaxın dost olduğunu deyən Ramiz Həsənoğlu onu ilk baxışdan sevilən, diqqəti cəlb edən insan kimi xatırlayır: "Yaşarın öz dünyası, hadisələrə münasibəti, aludə olduğu müsbət və mənfi şeylər vardı. Yaşarın bir keyfiyyəti vardı, ancaq mən onu xoşlamırdım: hara gedirdisə, gələndə mən saatımı çıxarıb qoyurdum və deyirdim ki, 15 dəqiqədən sonra dünyanın bütün problemləri ilə bağlı nə varsa hamısını Yaşar özü ilə bağlayacaq. Bu da ondan irəli gəlirdi ki, onun eqosu çox güclü idi. O, özünü eyni zamanda, dünyanın mərkəzində görürdü. Onu sevənlər isə əgər Yaşarla təmasda olmaq istəyirdilərsə, gərək bunu qəbul edəydilər".

R.Həsənoğlu Yaşar Nurini bir çox rejissorların uğurunun səbəbkarı hesab edir: "Aktyor sənətin tacıdır. Rejissorun gördüklərini, düşündüklərini təcəssüm etdirir. Ona görə aktyor seçimi rejissorun uğurunun birinci səbəbidir. Bu mənada Yaşar bir çox rejissorların uğurlarının səbəbkarıdır. Yaşar televiziyada məndən başqa rejissorların da tamaşalarında çəkilib. Tariyel Vəliyevin "Trilogiya"sında, Bünyad Məmmədovun "Astana"sında...". Y.Nurinin daha çox komik filmlərin və tamaşaların aktyoru kimi yadda qaldığını bildirən rejissor deyir ki, qəhrəmanımızın palitrası onun bütün amplualarda oynamağa və bütün sınaqlardan uğurla çıxmağa imkan verib: " Yaşarı dünya aktyorları ilə müqayisə edəndə onu tanınmış rus aktyoru Yevgeniy Leonova bənzədirəm. O, həm xalqın sevimlisi, həm də böyük aktyor idi".



Yaşar Nuri daim çalışmaq, yeni rollara çəkilmək arzusu ilə yaşayırdı. Onun fikrincə, yaxşı sənətkarın ömrünün bir gününü boşa vermək onun ömrünün bir səhifəsini əlindən almağa bərabər idi: "Hələlik mənə səhnə lazımdır. Nə vaxt lazım olmasam, dərya balığı sahilə atdığı kimi, səhnə də məni özü kənara atacaq"- deyirdi.

Sənət şövqündən, işləmək, öyrənmək və öyrətmək həvəsindən də heç nə əskilməmişdi: "Mən hələ işləyirəm. Təminat verə bilmərəm - 5 il, 10 il. Lap işləməsəm də, televizorda hər gün məni göstərirlər. Çünki vaxtında o əziyyəti çəkmişəm. Biri deyəndə ki, saçın ağarıb, buna heyfsilənmirəm. Mən bu saçı sənətim, dostlarım, ailəm üçün ağartmışam..."

**Təranə Məhərrəmova**